**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI**

**ƏMR**

**28 oktyabr 2025-ci il** **10-1/3-1-199/2025**

**Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının tərkibində dəyişiklik edilməsi barədə**

"Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnamənin 12-ci və 13-cü bəndlərini rəhbər tutaraq və Azərbaycan Respublikası maliyyə nazirinin müavini tərəfindən daxil olmuş 2025-ci il 21 oktyabr tarixli məktubu nəzərə alaraq **əmr edirəm:**

1. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Uçot siyasəti şöbəsinin Təşkilatlarda uçot siyasəti sektorunun sabiq müdiri Kəmalə Cəlal qızı Hümbətova təqaüdə çıxması ilə əlaqədar Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının tərkibindən çıxarılsın.
2. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Uçot siyasəti şöbəsinin müdir müavini – Mühasibat uçotunun beynəlxalq standartlarının tətbiqi sektorunun müdiri Ramiz Mehdi oğlu Qarayev Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının tərkibinə daxil edilsin.
3. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bu əmrin mətninin R.M.Qarayevə göndərilməsini və Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsini təmin etsin.
4. Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin 2025-ci il 21 aprel tarixli 10-1/3-1-50/2025 nömrəli əmri qüvvədən düşmüş hesab edilsin.

Əsas: Azərbaycan Respublikası maliyyə nazirinin
müavini Azər Bayramovun 21.10.2025-ci il
tarixli 3-23/2-8257/2025 nömrəli məktubu

**Palatanın sədri** **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/RSd8tAW5tmu4aV95np5JwftZnsArhq3Q1ywdykvytAM%3D